# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**

## Azərbaycanın rəqəmsal inkişaf strategiyası



2

## "Azərbaycan və Türkiyə arasında sıx siyasi dialoq xüsusi əhəmiyyət daşıyır"



2


SƏS

№ 049 (7459)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

1 iyul 2026-cı il.
Qiymәti 1 manat


# Sülh, yoxsa müharibə müqaviləsi?



4

**YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ICAPP Daimi Komitəsinin xüsusi sessiyasında çıxış edib**




3

**Tarix müəllimlərinin sertifikasiya etirazı: "52, 54, 57-ci suallar..."**



7

**Nəyin bahasına olursa, olsun...**



4

**"Sosial şəbəkələrdəki dərəbəylik cinayətkar və psixoz uşaqların sayını artırır"**



5

**Kanallarda boğulma: görünməyən təhlükə və hər yay təkrarlanan faciələr**



8

# "Azərbaycan və Türkiyə arasında sıx siyasi dialoq xüsusi əhəmiyyət daşıyır"

***"Azərbaycan ilə Türkiyə arasında münasibətlər hazırda öz tarixinin ən yüksək strateji səviyyəsindədir. İki ölkə arasındakı əməkdaşlıq artıq klassik dostluq və tərəfdaşlıq formatını aşaraq tamhüquqlu müttəfiqlik modelinə çevrilib".Bu sözləri SİA-ya açıqlamasında politoloq Tural İsmayılov deyib.***



Onun sözlərinə görə, xüsusilə 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsindən sonra siyasi, hərbi, iqtisadi, enerji, nəqliyyat və təhlükəsizlik sahələrində inteqrasiya daha da dərinləşib:"Xarici işlər nazirləri Ceyhun Bayramov və Hakan Fidan arasında keçirilən telefon danışığı da məhz bu institusional müttəfiqliyin praktik təzahürüdür. Tərəflər regional və qlobal proseslərdə mövqelərini mütəmadi şəkildə əlaqələndirir, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi davam etdirirlər.

Bu, iki ölkənin yalnız ikitərəfli münasibətlərdə deyil, həm də ortaq geosiyasi baxış əsasında hərəkət etdiyini göstərir.Hazırda Cənubi Qafqazda formalaşan yeni təhlükəsizlik arxitekturasında Azərbaycan və Türkiyə əsas söz sahibi olan dövlətlər sırasındadır. Zəngəzur dəhlizi, Orta Dəhlizin inkişafı, Türk dünyasının inteqrasiyası və regional kommunikasiyaların açılması kimi strateji layihələr Bakı ilə Ankaranın ortaq baxışının daha da gücləndirir. Bu əməkdaşlıq təkcə iki ölkənin milli maraqlarına deyil, bütövlükdə regionun iqtisadi və siyasi sabitliyinə də mühüm töhfə verir.Bununla yanaşı, Yaxın Şərqdə və qlobal siyasətdə müşahidə olunan mürəkkəb geosiyasi proseslər fonunda Azərbaycan və Türkiyə arasında sıx siyasi dialoq xüsusi əhəmiyyət daşıyır.

Müttəfiqlərin mövqelərinin əvvəlcədən uzlaşdırılması mümkün risklərin idarə olunmasına və ortaq maraqların daha effektiv müdafiəsinə xidmət edir.Ümumilikdə, Azərbaycan-Türkiyə münasibətləri hazırda "bir millət, iki dövlət" fəlsəfəsinin siyasi şüardan çıxaraq konkret strateji mexanizmə çevrildiyi mərhələni yaşayır. Qarşılıqlı etimad, ortaq təhlükəsizlik maraqları və uzunmüddətli strateji hədəflər bu müttəfiqliyi regionun ən dayanıqlı və təsirli əməkdaşlıq modellərindən birinə çevirib".

**Arzu Qurbanlı**

# Azərbaycanın rəqəmsal inkişaf strategiyası

## Mehriban Əliyeva: "Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir"

***"Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda, ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır." Bu sözləri iyunun 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasında Mehriban Əliyeva çıxışı zamanı bildirib. Məlumdur ki, cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilmişdir və verilən tapşırıqlara əsasən, rəqəmsal inkişaf üzrə Fəaliyyət Planı təsdiqlənmişdir.***



Prezident İlham Əliyevin "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə səsləndirdiyi fikirlər rəqəmsal inkişafın və süni intellektin artıq ayrıca texnoloji istiqamət deyil, ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi müəyyən edildiyini göstərir. Prezident İlham Əliyevin "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədəki çıxışı rəqəmsal transformasiyanı Azərbaycanın milli inkişaf strategiyasının mərkəzinə yerləşdirən konseptual və proqram xarakterli çıxışdır. Bu çıxışda rəqəmsallaşma təkcə texnoloji yenilənmə kimi deyil, dövlət idarəçiliyinin modernləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, sosial rifahın yüksəldilməsi və ölkənin qlobal rəqabət qabiliyyətinin artırılması üçün əsas alət kimi təqdim olunur. Dövlətimizin başçısı süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması və rəqəmsallaşma islahatlarının qlobal miqyasda ölkələrin gələcək inkişafını müəyyən edən amillər olduğunu vurğulamaqla Azərbaycanın da bu istiqamətdə ardıcıl və sistemli fəaliyyət göstərməli olduğunu açıq şəkildə ifadə edib. Dövlət başçısı çıxışında Azərbaycanın mövcud üstünlüklərini – enerji generasiya gücünün artımı, istifadə olunmayan enerji ehtiyatları, geniş nəqliyyat və enerji infrastrukturu, fiber-optik bağlantıların inkişafı, müsbət investisiya mühiti və beynəlxalq tərəfdaşlıq platformalarını – süni intellekt və data mərkəzləri kimi yeni iqtisadi istiqamətlər üçün baza kimi təqdim edib. Xüsusilə 10 min meqavatlıq generasiya gücü və ən azı 2 min meqavat sərbəst enerji potensialının data mərkəzləri üçün başlıca şərt kimi qeyd olunması bu sahəyə strateji yanaşmanı nümayiş etdirir.

### "SÜNİ İNTELLEKTİN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ ROLU ARTMAQDADIR VƏ ARTIQ MƏRKƏZİ YER TUTUR"

"Qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret Yol xəritəsi müəyyən olunmuşdur. Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir", - deyə Mehriban xanım bildirib.

Müasir dünyada dövlətlərin gücü həm də rəqəmsal infrastrukturun səviyyəsi və innovasiya potensialı ilə müəyyən olunur. Yeri gəlmişkən, "Azərbaycanın yeni rəqəmsal arxitekturası"na ölkənin uzunmüddətli inkişaf strategiyası kimi baxa bilərik. Plan dövlət idarəçiliyinin modernləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi və texnoloji infrastrukturun yenilənməsini hədəfləyir. "Süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amilidir. Eyni zamanda, süni intellektin dövlətlərin təhlükəsizliyinin təmin edilməsində rolu artmaqdadır və artıq mərkəzi yer tutur. Sirr deyil ki, dünyanın aparıcı dövlətlərində süni intellektin inkişafı gözlənilən proqnozlardan daha sürətli gedir və bu, öz növbəsində həm yeni imkanlar, eyni zamanda, yeni təhlükələr yaradır. Biz yeni çağırışlara, xüsusilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində olan və yaranan risklərə hazır olmalıyıq. Fəaliyyətimiz bütün dövlət qurumlarının birgə fəal və səmərəli işini tələb edir. Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir",- deyə Birinci vitse-prezident Mehriban Əliyeva bildirib.

### "BİZ XARİCİ, BEYNƏLXALQ TƏCRÜBƏNİ ÖYRƏNMƏLİ, UĞURLU MODELLƏRDƏN İSTİFADƏ ETMƏLİYİK"

"Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026 2028-ci illər üçün Fəaliyyət Planı"nın icrası ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr əhəmiyyət daşıyır. Fəaliyyət planı rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə 58 təşəbbüsü əhatə edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi rəqəmsal transformasiya ardıcıl şəkildə həyata keçirilir. Dövlətimizin başçısının bu ilin fevralında imzaladığı Fərmanla Rəqəmsal İnkişaf Şurası yaradılıb və "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026 2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiqlənib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Şurada müəyyən edilmiş strateji prioritetlərə və verilmiş tapşırıqlara uyğun olaraq müasir qanunvericilik bazasının formalaşdırılması istiqamətində kompleks islahatlar hazırlanıb. "Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır", - deyə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva diqqətə çatdırıb.

**Zümrüd BAYRAMOVA**

# YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ICAPP Daimi Komitəsinin xüsusi sessiyasında çıxış edib

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Daimi Komitəsinin 25-28 iyun tarixlərində Monqolustanın paytaxtı Ulan-Batorda keçirilən 45-ci iclasının xüsusi sessiyasında videoformatda iştirak edib.

17 ölkədən 22 aparıcı siyasi partiya nümayəndələrinin iştirak etdiyi tədbirin açılış mərasimində Monqolustan Xalq Partiyasının baş katibi Sodbator Yanquq və ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq çıxış ediblər.

ICAPP-ın baş katibi Oh Sonq təşkilatın fəaliyyətinə dair cari məsələlər barədə məruzə ilə çıxış edib. Sonra gələcək iş planı ətrafında fikir mübadiləsi aparılıb.

ICAPP Daimi Komitəsinin "Rəqəmsal dövrdə Asiya







transformasiyası: süni intellektin yaratdığı çağırışlar" mövzusuna həsr olunmuş xüsusi sessiyası keçirilib.

Sessiyaya videoformatda qatılan YAP Sədrinin müavini Tahir Budaqov ICAPP Daimi Komitəsinin 45-ci iclasına ev sahibliyinə görə Monqolustan Xalq Partiyasına təşəkkürünü bildirib və iclasın işinə uğurlar arzulayıb. O, hazırda olduqca aktual bir mövzuya həsr olunmuş bu mühüm iclasda aparılan müzakirələrin rəqəmsal inkişafın ən son yeniliklərinin və süni intellektin yaratdığı çağırışlara adekvat tədbirlərin müəyyənləşdirilməsi baxımından səmərəli fikir və təcrübə mübadiləsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Tahir Budaqov qeyd edib ki, bu gün bəşəriyyət fundamental texnoloji dəyişikliklər dövrünü yaşayır: "Asiya qitəsi bu transformasiyanın əsas mərkəzlərindən biridir. Əhalisinin sayı, iqtisadi potensialı, texnoloji innovasiya imkanları və insan kapitalı baxımından Asiya süni intellekt inqilabının əsas hərəkətverici qüvvəsinə çevrilməkdədir. Bununla yanaşı, regionumuz rəqəmsal bərabərsizlik, texnoloji asılılıq, kibertəhlükəsizlik riskləri, etik tənzimləmə və əmək bazarının transformasiyası kimi ciddi çağırışlarla da üz-üzədir. Bu baxımdan əsas məsələ süni intellektin inkişaf edib-etməyəcəyi deyil, onun hansı prinsiplər əsasında inkişaf etdiriləcəyidir. Bu qlobal prosesləri diqqətlə izləyən Azərbaycan rəqəmsal transformasiyanı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Bu sahədə həyata keçirilən islahatlar çərçivəsində ölkədə elektron dövlət xidmətlərinin inkişafı və süni intellekt texnologiyalarının tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Milli prioritetlərimizi dəstəkləyən etibarlı, təhlükəsiz və səmərəli infrastruktur, data bazası və xidmətlər təmin etməklə nəqliyyat və kommunikasiya şirkətlərimizin fəaliyyətini müasirləşdirmək, qarşılıqlı inteqrasiyasını təmin etmək və dəyərini artırmaq məqsədilə 2024-cü ildə "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxs yaradılmışdır. AZCON Holding-in tərkibində fəaliyyət göstərən Milli Süni İntellekt Mərkəzi süni intellekt sahəsində tədqiqat və inkişaf fəaliyyətinin təşviqinə, innovativ həllərin hazırlanmasına, rəqəmsal transformasiya proseslərinin sürətləndirilməsinə və qabaqcıl texnologiyaların iqtisadiyyatın müxtəlif sahələrində tətbiqinə dəstək göstərir".

YAP Sədrinin müavini bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" isə bu istiqamətdə dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edir, ölkədə süni intellekt ekosisteminin inkişaf etdirilməsi, innovativ həllərin təşviqi, elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi və yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasını nəzərdə tutur: "Strategiyanın icrası çərçivəsində atılmış mühüm addımlardan biri Azərbaycanda süni intellekt üzrə bilik və bacarıqların inkişaf etdirilməsi, yeni nəsil mütəxəssislərin hazırlanması məqsədilə 2025-ci ildə Süni İntellekt Akademiyasının yaradılmasıdır. Azərbaycanın ali təhsil müəssisələri də bu prosesdə mühüm rol oynayır. Ölkənin aparıcı universitetlərində kompüter elmləri, informasiya texnologiyaları, verilənlərin analitikası və süni intellekt istiqamətlərində ixtisaslaşmış proqramlar inkişaf etdirilir. Məqsəd yalnız texnologiyadan istifadə edən mütəxəssislər deyil, yeni texnologiyalar yaradan tədqiqatçılar və innovatorlar yetişdirməkdir. Görülən işlər çərçivəsində rəqəmsal texnologiyaların və süni intellektin dövlət idarəçiliyində tətbiqinin genişləndirilməsi ilə bərabər, onların yaratdığı problemlərin və təhdidlərin qarşısının alınması, kibertəhlükəsizliyin gücləndirilməsi yönündə də hüquqi və əməli addımlar atılır, müvafiq qanunlar qəbul edilir. İnsanlar istifadə etdikləri texnologiyaların şəffaflığına, təhlükəsizliyinə və ədalətliliyinə inanmalıdırlar. Süni intellekt sistemləri hüququn aliliyinə, etik normalara və insan hüquqlarına uyğun fəaliyyət göstərməlidir. Bu baxımdan beynəlxalq əməkdaşlığın əhəmiyyəti xüsusi vurğulanmalıdır. Heç bir dövlət süni intellektin yaratdığı imkanlardan və risklərdən təkbaşına sığortalana bilməz. Məlumat təhlükəsizliyi, etik standartlar, rəqəmsal idarəetmə və innovasiya sahəsində ortaq yanaşmaların hazırlanması qlobal zərurətə çevrilmişdir".

Tahir Budaqovun sözlərinə görə, süni intellekt və rəqəmsal transformasiya yalnız hökumətlərin deyil, eyni zamanda, siyasi partiyaların da qarşısında yeni vəzifələr müəyyən edir: "Müasir dövrdə siyasi partiyalar cəmiyyətlə dövlət arasında körpü rolunu oynamaqla yanaşı, texnoloji dəyişikliklərin sosial nəticələrinin düzgün idarə olunmasın-




da mühüm məsuliyyət daşıyırlar. Siyasi partiyalar rəqəmsal savadlılığın artırılması, innovasiyaların təşviqi, gənclərin texnologiya sahəsinə cəlb olunması və süni intellektin etik istifadəsi ilə bağlı ictimai konsensusun formalaşdırılmasında fəal rol oynamalıdırlar. Yeni Azərbaycan Partiyası da süni intellektin imkanlarından istifadə etmək məqsədilə özünün ixtisaslı kadrları vasitəsilə bu texnologiyanı öyrənir və onun tətbiqi imkanlarını təhlil edir. Ötən il iyunun 15-də YAP-ın təşkilatçılığı ilə Şuşa şəhərində keçirilmiş "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" adlı beynəlxalq konfransın "Ortaq dəyərlər və süni intellekt: yeni təhdidlər və imkanlar" mövzusuna həsr olunmuş panel sessiyasında kifayət qədər maraqlı fikir və təcrübə mübadiləsi aparılmışdır. Günümüzün reallıqlarını nəzərə alaraq, bu məsələnin daim diqqət mərkəzində saxlanılmasının və aparılan müzakirələrin əhatə dairəsinin daha da genişləndirilməsinin vacibliyini bir daha qeyd edir, bugünkü müzakirələrin də uğurlu nəticələrlə yadda qalacağına əminliyimi ifadə edirəm".

Aparılmış müzakirələrdə rəqəmsal transformasiyanın və süni intellektin inkişafının qlobal tərəqqi və rifaha bir çox yeni imkanlar yaratdığı qeyd olunub. Bunun belə, yeni texnologiyaların, xüsusən də süni intellektin meydana çıxardığı bir sıra təhlükəsizlik çağırışlarına qarşı beynəlxalq ictimaiyyətin əlaqələndirilmiş və birgə fəaliyyətinin zəruriliyi vurğulanıb.

# "Heydər Əliyev məktəbi" layihəsinin ikinci mərhələsi başa çatıb







***Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın İsmayıllı rayon təşkilatının birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində təşkil olunan "Heydər Əliyev məktəbi" layihəsinin ikinci mərhələsi başa çatıb.***

İsmayıllı rayonu ərazisində yerləşən "Qaya" istirahət mərkəzində keçirilən layihənin bağlanış mərasimində Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov çıxış ediblər. Qeyd olunub ki, "Heydər Əliyev məktəbi" layihəsi gənclərin intellektual inkişafına, onların milli-mənəvi dəyərlərə və dövlətçilik prinsiplərinə bağlı ruhda formalaşmasına mühüm töhfə verir. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsinin öyrənilməsi və təbliği məqsədilə təşkil olunan bu cür layihələr gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm əhəmiyyət daşıyır.

Natiqlər layihənin "Şəhərsalma və Memarlıq İli" çərçivəsində keçirilməsinin əhəmiyyətini xüsusi vurğulayıb, Azərbaycanın müasir şəhərsalma siyasətinin və memarlıq ənənələrinin inkişafında Ümummilli Liderin xidmətlərini diqqətə çatdırıblar. Layihə iştirakçıları Pəri İbrahimova, İsrafil Abbasov və digərləri düşərgə barədə təəssüratlarını bölüşüblər. Daha sonra "Heydər Əliyev məktəbi" layihəsinin iştirakçılarına sertifikatlar, intellektual yarışlarda qələbə qazanan komandalara xatirə kubokları verilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Sülh, yoxsa müharibə müqaviləsi?

ANALİZ



## Atəşkəs ABŞ və İranın qarşılıqlı zərbələrinə mane ola bilmədi

***ABŞ ordusu İranın Panama bayrağı altında üzən tankerə pilotsuz təyyarəsinin hücumuna cavab olaraq Hörmüz boğazında İran hərbi hədəflərinə zərbə endirib. Sülh memorandumu imzalandıqdan sonra yeni bir gərginliyin baş verəcəyi bəlli idi. Sanki tərəfləri zorla danışıqlar masasına əyləşdirmişdilər. Bu gün artıq Vaşinqton və Tehran bir-birini sülh müqaviləsini pozmaqda ittiham edir və yeni təhdidlər mübadiləsi aparır. Beləliklə, tammiqyaslı münaqişənin yenidən başlama ehtimalı real olaraq qalır.***

18 iyunda prezidentlər Donald Tramp və Məsud Pezeşkian tərəfindən ABŞ-İran sülh memorandumunun imzalanmasından sonra Yaxın Şərqdə yeni bir gərginliyin səbəbi, 27 iyun səhəri Hörmüz boğazında baş verən bir hadisə oldu. Bu hadisədə İran pilotsuz təyyarəsi 2 milyon bareldən çox neft daşıyan Panama bayrağı altında üzən M/T Kiku ticarət tankerinə hücum etdi. Amerikanın cavabı dərhal və daha geniş idi. ABŞ-ın Yaxın Şərqdəki Mərkəzi Komandanlığının (CENTCOM) məlumatına görə, ABŞ Hərbi Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələri Hörmüz boğazında və yaxınlığında bir çox yerdə 10 İran hərbi hədəfinə zərbə endirib. Xüsusilə, Amerika hücumu İranın cənubundakı Bəndər Lengeh liman şəhərini, Sirik adlı başqa bir liman və yaxınlıqdakı Qeşm adasını hədəf alıb.

CENTCOM-un açıqlamasına görə, ABŞ döyüş təyyarələri İran hərbi kəşfiyyat obyektlərinə, rabitə sistemlərinə, hava hücumundan müdafiə mövqelərinə, dron anbarlarına və dəniz minalama obyektlərinə kütləvi zərbələr endirib. Lakin İran tərəfi son sözü deməyə çalışıb. İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) dəniz və aerokosmik qüvvələrinin 28 iyun gecəsi ballistik raketlər və hücum dronlarından istifadə edərək bir saatlıq birgə əməliyyat keçirdiyini, Küveytdəki Əli Əs-Saləm Hava Bazası və Bəhreynin Port Salman şəhərindəki ABŞ Beşinci Donanmasının qərargahı da daxil olmaqla, bölgədəki "səkkiz əsas ABŞ hərbi obyektinə" zərbə endirdiyini açıqlayıb.

İİKK komandanlığı ABŞ-ı daha da təhdid edən bir bəyanat yayıb. "ABŞ-ın regiondakı bazalarının dəyəri ayrı bir məsələdir. Onlar yaxın günlərdə cəhənnəmlə üzləşəcəklər", - deyə İİKK xəbərdarlıq edərək əlavə edib ki, "düşmənin istənilən bəhanə ilə mümkün təcavüzünə sarsıdıcı cavab veriləcək və qayda pozanlara əvvəlkindən daha sərt davranılacaq". Bundan əlavə, İran təhlükəsizlik rəsmiləri Vaşinqtonu atəşkəsin yaradılmasını nəzərdə tutan memorandumun birinci bəndini pozmaqda günahlandırıb və sülh prosesinin tamamilə dayandırıla biləcəyini bildiriblər.

### Atəşkəs Vaşinqton və Tehran arasında yeni bir gərginliyə tab gətirəcəkmi?

Panama tankerinə edilən hücum Sinqapur bayrağı altında üzən üç tankerin Hörmüz boğazından keçməyə cəhd etdiyi, lakin Tehranın icazəsi olmadan bunu edə bilmədiyi başqa bir hadisədən sonra baş verib. "The Wall Street Journal" qəzetinin ABŞ rəsmilərinə istinadən verdiyi məlumata görə, tankerlərdən birinə İİKK tərəfindən hücum edilib və bu barədə dərhal Prezident Trampa məlumat verilib. Qəzet yazıb ki, "Tramp İranın boğazda sərbəst naviqasiyaya mane ola bilməyəcəyini açıq şəkildə bildirib".

Tehran hadisə ilə bağlı öz versiyasını təqdim edir. İran mediası xəbər verir ki, "İİKK-nın xəbərdarlığından sonra Hörmüz boğazından qanunsuz keçməyə çalışan üç xarici neft tankeri saxlanılaraq Fars körfəzinə qaytarılıb".

ABŞ-ın vitse-prezidenti J.D. Vensin 25 iyunda elan etdiyi iki tərəf arasında qurulan birbaşa xətt Hörmüz boğazında fövqəladə vəziyyətin qarşısını almağa zəmanət verə bilməz. Vensin qeyd etdiyi kimi, iki tərəf gərginliyi azaltmaq və mübahisəli məsələləri həll etmək üçün birbaşa rabitə kanalı yaratmaq barədə razılığa gəliblər. Lakin cavab olaraq İran tərəfi bildirib ki, qurulan rabitə kanalı yalnız siyasi məsələlər üçün nəzərdə tutulub, gəmilərin Hörmüz boğazından keçməsi ilə bağlı məsələlərdə Vaşinqtonla əlaqələndirmə üçün deyil.

### İranla bağlı razılaşma niyə tənqid olunur?

İslabad Memorandumunun həyata keçirilməsinin təhlükə altında olduğu bir vəziyyətdə, çox şey Prezident Trampın İranla yeni bir gərginlikdə nə qədər irəli getməyə hazır olmasından asılı olacaq. Hörmüz boğazındakı vəziyyətlə bağlı şərh verən Ağ Ev rəhbəri bir daha pis ritorikaya əl ataraq, ABŞ-ın bir məqamda İrana qarşı tammiqyaslı hərbi əməliyyatları bərpa etməyə məcbur olacağını irəli sürüb. "Onların heç vaxt dərs çıxarmamaları tamamilə mümkündür! Artıq rasional hərəkət edə bilməyəcəyimiz və başladığımız işi hərbi cəhətdən uğurla başa çatdırmağa məcbur olacağımız bir nöqtə gələ bilər. Əgər bu baş verərsə, İran İslam Respublikası mövcudluğuna son qoyacaq", - deyə Tramp Truth Social sosial şəbəkəsində yazıb.

### Yeni gərginlik mərhələsi və əsas məqamlar

ABŞ İranın hərbi obyektlərinə zərbə endirərək bunu "Hörmüz boğazında davam edən təcavüzünə görə qisas" adlandırıb. İran tezliklə Küveytdəki ABŞ bazasına və Bəhreyndə ABŞ Hərbi Dəniz Qüvvələrinin limanına hücum edib. ABŞ prezidenti Donald Tramp İranı məhv etməklə hədələyib və İİKK ABŞ bazalarına "cəhənnəm" gətirəcəyinə söz verib. "The Wall Street Journal" (WSJ) qəzetinin iki ABŞ rəsmisinə istinadən verdiyi məlumata görə, İran Hörmüz boğazında Oman sahillərində Sinqapur bayrağı altında üzən yük gəmisinə hücum edib.

### İranın Bəyanatları

İran ABŞ-ı atəşkəs memorandumunun və BMT Nizamnaməsinin "kobud şəkildə pozulmasında" günahlandırıb. İran Xarici İşlər Nazirliyinin açıqlamasına görə, ABŞ İranla memorandumun iki bəndini, o cümlədən Hörmüz boğazında gərginliyi artırmağa davam etməkdə pozub. İran xarici işlər naziri Abbas Əraqçi üçüncü ölkələri Hörmüz boğazındakı vəziyyətə müdaxilə etməməyə çağırıb, çünki bu, marşrutun açılmasını gecikdirə bilər.

Əraqçi bildirib ki, Hörmüz boğazında normal gəmiçiliyin bərpası məsuliyyəti yalnız İranın üzərinə düşür. İran Fars körfəzi ölkələri ilə regiondan kənar ölkələrin müdaxiləsini istisna edəcək təhlükəsizlik sisteminin yaradılmasına çağırıb. İİKK Hərbi Dəniz Qüvvələrinin komandanı bildirib ki, yaxın günlərdə Yaxın Şərqdəki ABŞ bazalarını "cəhənnəm" gözləyir. İİKK bəyan edib ki, qayda pozanlara qarşı zərbələr "keçidin sərbəst olduğu Hörmüzdəki gəmiləri xatırladacaq". İran televiziya kanalı Press TV-yə görə, İİKK rəhbərliyi birbaşa xəttə qoşulmayıb və gələcəkdə Vaşinqtonla əlaqə qurmaq üçün bundan istifadə etmək niyyətində deyil.

### AB Bəyanatları

AB İranın Bəhreynə qarşı dron hücumlarını qınadı. AB İranı qonşu dövlətlərə hücumları dərhal dayandırmağa, ABŞ ilə anlaşma memorandumuna tam əməl etməyə və BMT Təhlükəsizlik Şurasının 2817 saylı qətnaməsini tam şəkildə yerinə yetirməyə çağırdı.

***V.VƏLİLİ***



Elçin Bayramlı

# Nəyin bahasına olursa, olsun...

***Son dövrlərdə cəmiyyətdə tanınmaq və məşhurlaşmaq istəyi daha qabarıq şəkildə özünü göstərir. Hər kəs daha çox diqqət çəkməyə, izləyici qazanmağa çalışır. Bəs bu tendensiyanın səbəbi nədir?***

Bu, əsasən internetin və sosial şəbəkələrin sürətli inkişafı ilə ortaya çıxıb. İnsanlar getdikcə rel dünyadan virtual dünyaya keçir və buradan özünü təsdiq etməyə çalışır. Xüsusən də, sosial şəbəkələr bunun üçün böyük imkanlar yaradıb.

Bəzi insanlar bundan istifadə edərək tanınmağa çalışırlar. Bu tip şəxsləri şərti olaraq iki qrupa bölmək olar. Birinci qrup bunu maddi qazanc və karyera qurmaq məqsədilə edir. İkinci qrup isə sadəcə öz eqosunu təmin etmək, özünü təsdiqləmək, diqqət mərkəzində olmaq istəyir. Onlar özlərini olduqlarından fərqli göstərməyə, başqalarından üstün təqdim etməyə çalışırlar. Bunun kökündə isə çox vaxt diqqət və qayğı çatışmazlığı, şəxsiyyət boşluğu dayanır. Əslində məşhurlaşmaq məqsədi ilə yaşamaq müsbət xüsusiyyət deyil. İnsan məşhur olmaq üçün yox, cəmiyyətə dəyər yaratmaq üçün çalışmalıdır. Əgər yaratdığın dəyər xalqa faydalıdırsa, insanlar səni onsuz da tanıyacaq və qəbul edəcək. Məşhurluq məqsəd deyil, vasitə ola bilər.

Bizim görkəmli şəxsiyyətlərimiz, dahilərimiz məşhurlaşmaq üçün çalışmayıblar. Onlar elmdə, sənətdə və ya başqa sahələrdə elə böyük dəyərlər yaradıblar ki, xalq onları özü tanıyıb, qiymətləndirib və məşhurlaşdırıb. Bu, sağlam və təbii yoldur. Təəssüf ki, bu gün fərqli bir tendensiya formalaşıb: nəyin bahasına olursa-olsun məşhurlaşmaq. Məhz bu ifadənin özü problemin mahiyyətini göstərir- "nəyin bahasına olursa olsun".

Əxlaqını, şərəfini, ləyaqətini, şəxsi nüfuzunu itirmək bahasına da olsa, özünü gülüş hədəfinə çevirmək, başqalarına zərər vurmaq hesabına da olsa, tanınmağa çalışmaq sağlam düşüncə deyil. Bu yanaşma həm fərd, həm də cəmiyyət üçün təhlükəlidir. Belə həyat tərzi insanı mənəvi dəyərlərdən uzaqlaşdırır, onu yalnız maddiyyata, şöhrətə və tanınmağa köklənmiş bir həyata sürükləyir. Belə insanlar üçün əsas məqsəd pul, populyarlıq, tanınmış şəxslərlə şəkil çəkdirmək və diqqət qazanmaq olur. Bu isə sağlam düşüncə tərzi deyil.

Bu cür davranışların bir hissəsinin arxasında ciddi psixi problemlər dayanır. Belə hallarda mütəxəssis yardımı vacibdir. Çünki bəzi insanlar nə problemlərinin fərqində olurlar, nə də müalicəyə ehtiyac duyduqlarını qəbul edirlər. Bu tendensiya cəmiyyətə də ciddi zərər vurur. Milli-mənəvi dəyərləri zəiflədir, etik normaları pozur, xüsusilə gənclər üçün yanlış davranış modelləri formalaşdırır. Sosial, mənəvi və psixoloji baxımdan bunun mənfi təsirləri açıq şəkildə görünür.

Son dövrlərdə hüquq-mühafizə orqanlarının bu istiqamətdə müəyyən tədbirlər görməsi nəticəsində biabırçı hallar qismən səngiyib. Bu, müsbət haldır. Lakin belə halların sayı hələ də çoxdur. Hesab edirəm ki, bu məsələyə daha ciddi yanaşılmalıdır. Çünki sosial şəbəkələr vasitəsilə milli-mənəvi dəyərlərə, ictimai əxlaqa və cəmiyyətin sağlam inkişafına ciddi zərbə vurulur. Əgər kimsə şəxsi maraqları naminə dövlətə, cəmiyyətə və milli dəyərlərə zərər vurursa, qanun çərçivəsində bunun qarşısı alınmalı və məsuliyyət tədbirləri tətbiq edilməlidir.

Cəmiyyətimiz də internetdə, sosial şəbəkələrdə belələrinə yox, faydalı- elmi, mədəni, yaradıcı, mənəvi istiqamətlərdə fəaliyyət göstərən şəxslərə- səhifələrə, kanallara dəstək verməlidir. Əgər belə edilsə, mənfi hallar diqqətdən kənarda qalaraq sıradan çıxacaq. Deməli hər şey cəmiyyətin özündən asıdır. Cəmiyyət real dünyada necədirsə, virtual dünyada da elə olacaq. Biz real dünyada sağlam cəmiyyətik və bunu virtual dünyada da göstərməliyik.






# AŞPA qərəzi ilə növbəti riyakarlığını nümayiş etdirdi

***Dünya dəyişir, yeni reallıqlar və vəziyyətlər yaranır. Dünya iqtisadiyyatına, mədəniyyətinə, elminə, texnologiyasına və digər sahələrə mühüm töhfələr verən yeni dövlətlər formalaşır. Bu halda iddiaları ilə seçilməyə çalışan ölkələr hər bir sahə üzrə çökməyə, tənəzzül etməyə başlayırlar. Ancaq hikkələri reallıqları etiraf etməyə imkan vermir. Yeni güc mərkəzlərini, dövlətləri hədəfə almaqla durumu dəyişməyə ümid edirlər.***

## *Nasistlərin əsas ideoloqu olan Frank Şvaber 30 ildə olduğu kimi, bu gün də öz ampluasındadır*

Son illər dünyanın ən qüdrətli dövlətləri sırasında yer alan Azərbaycanın Fransa, Almaniya, Niderland, ABŞ-ın bəzi dairələrinin, Kanada və digər dövlətlərin hakimiyyətləri tərəfindən məqsədyönlü formada hədəfə alınması qeyd olunanlara misal ola bilər. Xüsusilə də, Azərbaycanın 44 günlük Vətən Müharibəsində 30 illik erməni işğalına son qoyaraq torpaqlarını azad etməsi ilə bəzi "Xristian klubu"nun fəal üzvü olan dövlətlərin, eləcə də onların əksəriyyətinin təmsil olunduğu AŞPA-nın, Avropa İttifaqının başlarına qara daş, qarınlarına sarı sancı doldurdu. Başladılar Azərbaycan haqqında hədyanlar səsləndirməyə, ittihamlar irəli sürməyə, kağız parçasından başqa bir şey olmayan qətnamələr qəbul etməyə. Yalnız 2020-ci ildə böyük hərbi zəfərdən sonra AŞPA və Avropa İttifaqı ümumilikdə Azərbaycana qarşı 17 sərsəm fikirlər, anormal cümlələrdən ibarət olan qətnamə qəbul edib. Avropa Şurası Parlament Assambleyasının iyunun 24-də Azərbaycana dair qəbul etdiyi növbəti beynəlxalq təşkilat səviyyəsində dezinformasiya xarakterli qətnamə bu təşkilatın iyrənc və yarıtmaz bir qurum olduğunu təsdiqlədi. Sübuta yetirildi ki, bu təşkilat 1096-cı ildə başlayan və 200 il davam edən, sonda acınacaqlı məğlubiyyətlərə uğrayan "Səlib yürüşləri"ni bərpa etməyə çalışırlar. Daha doğrusu, xristian erməni terror toplumunun müsəlman Azərbaycan dövləti tərəfindən məhv edilərək torpaqlarını azad etməsini həzm etməyərək ölkəmizə qarşı "yürüşə" başlayıblar. Bu halda diqqətçəkən məqam ondan ibarətdir ki, xristianlar ilk "Səlib yürüşü"nə 1096-cı ilin yazında 300 min nəfərlik ordu ilə başlamışdılarsa, Azərbaycana qarşı az qala 300 milyonluq kütlə ilə hərəkət edirlər.

### Fransa və Almaniya "Səlib yürüşləri"ni bərpa etməyə çalışırlar

Əgər "Səlib yürüşlər"ində Fransa və Almaniyanın rəhbərliyi ilə 12 dövlətin orduları iştirak etmişdirsə, müsəlman dövləti olan Azərbaycana qarşı xaç yürüşləri 42 dövlət tərəfindən həyata keçirilir. Min il sonra da "komandanlıq" dəyişməyib. Yenə də Fransa və Almaniya əsas təşkilatçılardır. Ancaq unudulmamalıdır ki, biz azərbaycanlılar səlcuqlarla eyni ocağın, eyni soyun–kökün insanlarıyıq. Hansı ki, ilk xaç yürüşü elə əcdadlarımız olan səlcuqlar tərədfindən darmadağın edildi. "Müqəddəs şəhər" hesab olunan Qüds babası əslən Şamaxının Boyat düzündən olan Səlahəddin Əyyubinin komandanlıq etdiyi ordusu tərəfindən kafirlərdən təmizləndi. Bu baxımdan deməl olar ki, heç bir təhdid bizi mövqeyimizdən çəkindirə bilməz. Heç bir şantaja, dezinformasiya xarakterli qətnamələrə boyun əymərik. Azərbaycan o dövlətdir ki, Ermənistanın arxasında 50-yə yaxın dövlətin dayanmasına və terrorçu quruluşa hər cür hərbi, siyasi, maliyyə dəstəyinin göstərilməsinə baxmayaraq ölkəmiz çox qısa müddətdə torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Nəzərə almaq lazımdır ki, bu gün Azərbaycan ordusu 6 il öncəkindən daha qüdrətlidir. Əgər 6 il əvvəl Azərbaycan ordusu dünya orduları sırasında 50-ci yerdə idisə, bu gün 29-cu sırada qərarlaşır. Bu barədə Vaşinqtonda dərc edilən "U.S. News and World Report" jurnalında dərc olunan siyahıda qeyd olunur. Jurnalın araşdırmalardan sonra gəldiyi qənaətə görə, Azərbaycan ordusu dünyanın ən güclü 30 ölkəsinin orduları sırasında yer alır.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanla zor dilində danışmaq mümkün deyil. Bunu çox-çox uzaqlarda dayanıb sayıqlayan dövlətlərin nümayəndələri də anlayırlar, AŞPA, Avropa İttifaqı kimi beynəlxalq təşkilatların nasistlərin şinelindən çıxan məxluqlar da başa düşürlər. Ona görə də, Frank Şvaber kimi qatı nasist məxluqu irəli verib, Azərbaycan haqqında qərəzli layihələr irəli sürdürüb, təşkilatlarda qəbul etdirirlər. Başdan-ayağa qərəz üzərində hazırlanan qətnamədə Azərbaycanda vətəndaş cəmiyyəti nümayəndələrinin, jurnalistlərin və hökuməti tənqid edən şəxslərin guya təzyiqə məruz qalması, ifadə azadlığının məhdudlaşdırılması və "siyasi məhbus"ların mövcudluğu ilə bağlı iddialar yer alır. Lakin sənəddə bu məsələlərə yalnız bir tərəfin prizmasından yanaşılıb, bəzi qeyri-hökumət təşkilatlarının, ayrı-ayrı siyasi qrupların və Azərbaycana qarşı sərt mövqeyi ilə tanınan deputatların iddiaları əsas götürülüb, rəsmi Bakının mövqeyi, Azərbaycan hökumətinin hüquqi arqumentləri və qanunvericilik çərçivəsi nəzərə alınmayıb. Bu isə sənədin balanslı deyil, birtərəfli hazırlandığı barədə qənaəti gücləndirir.

### Hər gün onlarla miqrant Avropada polisin və yerli əhalinin zorakılığının qurbanı olur

Sual olunur, hər gün Almaniyada, Fransada, Niderlandda və digər Avropa ölkələrində insanlar milli mənsubiyyətinə, dini təəssübkeşliyinə görə təqib olunur, döyülür, söyülür, həbslərə atılır, nədən AŞPA bunlara göz yumur? Yalnız ötən il Almaniyada 436 nəfər miqrant, Fransada 425 nəfər miqrant, Niderlandda 237 nəfər miqrant polisin və yerli əhalinin zorakılığının qurbanı olub. Niyə özünü "insan hüquq və azadlıqlarının müdafiəçisi" adlandıran AŞPA və Avropa İttifaqı bunlara göz yumub?

Ermənistanda 7 iyun qondarma parlament seçkilərindən sonra Paşinyanın rəqiblərinin kütləvi həbsləri həyata keçirildi. Seçkilərin keçirildiyi gün və ondan sonra Ermənistanda müxalifət nümayəndəsinin saxlanılması və siyasi rəqiblərə qarşı cinayət işlərinin açılması halları kütləvi xarakter aldı, jurnalistlər yazdıqları məqalələrə, dedikləri sözlərə görə həbslərə atıldılar. Frank Şvaber isə bütün bunları kar və kor kimi münasibət bildirmədi. Frank Şvaber 30 ildə olduğu kimi, bu gün də öz ampluasındadır. Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyi dövrdə 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün həyatına məhkum edilməsi, şəhərlərinin, kənd və qəsəbələrinin viran qoyulması, məscidlərinin dağıdılması, tarixi abidələrini yerlə yeksan olunması, qəbiristanlıqların vandal hücumlarına məruz qalması və digər insanlıq əleyhinə olan cinayətlərə Frank Şvaber və onun təmsil olunduğu təşkilat, eləcə də təlimatlar aldığı dövlətin nümayəndələri anlamaq və görmək istəməyiblər. F.Şvaber sifarişlərə uyğun olaraq bütün günü Azərbaycana qarşı əsassız ittihamlarla çıxış edir. Gah deyir ki, Azərbaycanda "İnsan haqları" pozulur, "demokratiya yoxdur", bəzən də iddia edir ki, Azərbaycanda "siyasi məhbuslar" var. Bu məxluq daha çox "siyasi məhbuslar" şousunu yaratmağa çalışır. Ənənəvi Qərb şər və böhtanı olan bu cür sayıqlama o qədər də təəccüb doğurmur. Çünki öz dayaz düşüncələrinə görə, "siyasi məhbus" termini siyasi təzyiq rolunu oynayır. Lakin Azərbaycan xalqının el məsəli var "sirkə nə qədər tünd olsa, öz qabını çatladar". AŞPA və Avropa İttifaqı, onların əlkəmizin hər bir uğuruna hürən məxluqları anlamalıdırlar ki, qərəzli mövqe, yanlış yanaşma onların özlərinə ziyan vuracaq, necə ki, artıq genişmiqyaslı zərərin nəticələrini görməkdədirlər.

***İ. ƏLİYEV***

# "Sosial şəbəkələrdəki dərəbəylik cinayətkar və psixoz uşaqların sayını artırır"



***"Son vaxtlar məktəblərdə şagirdlərin öz sinif yoldaşlarını və müəllimləri hədəf alan cinayətkar hərəkətləri cəmiyyətdə şok effekti yaradıb. Lakin bu cür qatil düşüncəli uşaqları kim yetişdirir? – nəzarətsiz internet, sosial şəbəkələr! Bəli, bu mövzu demək olar ki, bu gün cəmiyyətin bir nömrəli əsas problemidir. İnternet resurslarının, xüsusilə sosial şəbəkələrin nəzarətsiz poliqon kimi cəmiyyəti başına götürdüyü bir zamanda uşaq və yeniyetmələrin zərərli informasiyalardan qorunması vacibdən vacib məsələdir.***

Nəzərə alsaq ki, əksər valideynlər də bu məsələyə lazımı şəkildə diqqət göstərmirlər, o zaman gələcəyimizlə bağlı vahimə daha da böyüyür. Çünki tik-tok və digər sosial şəbəkə seqmentlərində cinsi azlıqların, əxlaq pozğunu olan bir sıra "müğənnilərin" reklamı, habelə uşaqların psixologiyasına dəhşət zərbə vuran qorxulu oyunların nümayişi ölkə olaraq bizi dəhşətli fəlakətə sürükləyir".

Bu barədə jurnalist-ekspert Mətləb Salahov SİA-ya açıqlamasında bildirib. M.Salahov qeyd edib ki, nəzarətsiz internet məkanında ilk hədəf uşaq və yeniyetmələr seçilir. Bu iyrənc və təhlükəli siyasət uşaqların psixologiyasına, gələcəkdə şəxsiyyət kimi şikəst formalaşmasına zəmin yaradır.

M.Salahov qeyd etdi ki, uşaqları internetdəki zərərli informasiyalardan qorumaq ilk növbədə valideynlərin məsuliyyətidir: "Lakin min dəfə təəsüflər olsun ki, bir sıra valideynlər uşaqlarını əyləndirmək, sakitləşdirmək, ya da özlərinə vaxt ayırmaq üçün körpələri internetin ağuşuna atırlar. Uşaqların yaşına uyğun olmayan təhlükəli informasiya və reklamlarla tanışlıq onların hərəkət və fizioloji durumuna da mənfi təsir edir. Artıq iş o yerə çatıb ki, uşaqların internet aludəçiliyi psixoloji tramva halına çevrilib. Artıq bir neçə ildir ki, uşaq və yeniyetmələrin manyak şəkildə qatilə, zərərli manyaka çevrilməsi sürətli hal alıb. Düzdür, ölkəmizdə internetə giriş üçün yaş məhdudiyyətinin qoyulması barədə mühüm qanunvericilik təklifi hazırlanır. Bu, çox vacib və zəruri məsələdir. Çünki dövlət və cəmiyyət olaraq bu təhlükəyə qarşı birgə tədbirlər görməsək, uzağı dörd-beş il ərzində bizi çox təhlükəli situasiya gözləyir. Çünki gələcək nəsil gələcək Azərbaycan deməkdir, unutmayaq".

***Afət Tahirqızı***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Tarix müəllimlərinin sertifikasiya etirazı: "52, 54, 57-ci suallar..."

***İyun ayının 17-də start götürən təhsilverənlərin sertifikasiya prosesinin tərkib hissəsi olaraq, iyunun 24-də tarix müəllimlərinin sertifikası keçirildi. Müəllimlər sertifikasiyada təqdim edilən bəzi sualların yalnış cavabının doğru kimi qəbul edilməsindən narahatlıqlarını dilə gətirdilər. Tarixçi müəllimlər bildirirlər ki, 52, 54, 57-ci sualların doğru qəbul edilən yanlış cavabları ilə bağlı etirazları var. Redaksiyamıza müraciət edən bir qrup tarix müəllimi 54-cü sualın cavabının düzgün verilmədiyini deyir.***

Sual belədir: "Nizami Gəncəvi 1141-ci ildə anadan olub. Şagird bunu fərqli təqvimlə necə olduğunu deməlidir. Bu fəaliyyət əsasən B.Blumun idrak taksonomiyasının hansı mərhələsinə aiddir?"

Müəllimlər bu sualın doğru qəbul edilən cavabının əslində doğru olmadığını deyirlər. Müraciətdə bildirilir: "Sualın rəsmi doğru cavabı olaraq "Anlama" mərhələsi elan edilib. Lakin sualın şərti, orta məktəb dərsliklərində mövzunun tədrisi forması və Blum taksonomiyasının fundamental qiymətləndirmə meyarları analiz edildikdə, bu cavabın metodiki cəhətdən qüsurlu olduğu və doğru cavabın "Tətbiqetmə" mərhələsi olması zərurəti aşkar görünür. Etirazımızı aşağıdakı elmi-metodik əsaslarla diqqətinizə çatdırırıq:

Prosedural Fəaliyyət və Alqoritmin İcrası: Tarix fənninin tədrisi prosesində miladi təqvimdən hicri təqvimə keçid sadə bir kodlaşdırma, qruplaşdırma və ya hərfi tərcümə (Translation) deyil. Bu keçid şagirddən konkret riyazi əməliyyatların (Ay və Günəş ili arasındakı gün fərqlərinin ardıcıl çıxılması və ya vurulması, xüsusi riyazi nisbətlərin hesablanması) aparılmasını tələb edir. Şagird burada sadəcə verilən faktın mahiyyətini şərh etmir, bilavasitə riyazi-xronoloji alqoritmi icra edir.

Hazır Düsturun Şərtdə Verilməməsi Faktı: Kurikulum təlimatlarına və test tərtibatı prinsiplərinə görə, əgər tapşırıqda hesablama düsturu hazır şəkildə şagirdə təqdim olunsaydı və ondan yalnız bu sxemin mənasını izah etmək tələb olunsaydı, bu fəaliyyət "Anlama" mərhələsi hesab edilə bilərdi. Lakin sualın şərtində heç bir hazır düstur və ya köməkçi vasitə verilməyib. Şagird yaddaşındakı hesablama prosedurunu sərbəst şəkildə prosesə çevirərək tamamilə yeni və dərslikdə hazır şəkildə qeyd olunmayan bir rəqəm üzərində (1141-ci il) nəticə hasil edir. Bu isə Blum taksonomiyasında Tətbiqetmə mərhələsinin birbaşa tərifidir.

Vahid Vəsaitin Olmaması və Sualın Qeyri-müəyyənliyi: Elm və Təhsil Nazirliyi tərəfindən metodika və kurikulum sahəsi üzrə müəllimlərə rəsmi olaraq təqdim edilmiş vahid dərslik və ya təsdiq olunmuş vəsait mövcud deyildir. Bu cür vahid mənbənin olmadığı bir şəraitdə, sualların şərti tamamilə şəffaf, birmənalı olmalı və müxtəlif interpretasiyalara yol açmamalıdır. Təqdim olunan sualda fəaliyyətin konkret olaraq hansı idraki alt-bacarığa əsaslandığı dumanlı qalıb.

Rəsmi İzahın Verilməsi Tələbi: Əgər komissiya tərəfindən "Anlama" variantı israrla doğru qəbul edilirsə, bu halda "hesablama" və "müəyyən etmə" tələb edən bir tapşırığın hansı elmi-metodik ədəbiyyata və ya qiymətləndirmə çərçivəsinə əsasən Tətbiqetmə deyil, məhz Anlama mərhələsinə aid edildiyinin rəsmi və əsaslandırılmış izahının tərəfimizə təqdim olunmasını tələb edirik."

Müraciət edən müəllimlər, sözügedən 54-cü sualın yenidən ekspertiza edilməsini, sertifikasiyada iştirak edən müəllimlərə yazılı izah verilməsini və "Tətbiqetmə" variantının doğru cavab kimi qəbul edilməsini (və ya sualın metodiki qüsur səbəbindən ləğv edilərək xeyrimə hesablanmasını) tələb edir.

Digər mübahisəli sual 52-ci sual olub. Sual belə təsvir edilib: "Müəllim "Böyük coğrafi kəşflərin dünya iqtisadiyyatına təsiri, dünya dövlətlərini əldə etdiyiəlir bölgüsünə əsasən xəritə üzərində göstərmək" tapşırığını verir. Burada hansı inteqrasiya icra edilir?"

Etiraz edən müəllimlər bu sualın cavabının "fəndaxili və fənlərarası inteqrasiya" kimi götürülməsi fikri ilə razı deyillər. Redaksiyamıza göndərilən açıqlama belə əsaslandırılır:

**1.** Coğrafi kəşflərin dünya iqtisadiyyatına təsiri–10 ümumi tarix (3.1.2. Geosiyasi dəyişikliklərin cəmiyyətin sosial-iqtisadi həyatına təsirini şərh edir.)

**2.** dünya dövlətlərini əldə etdiyəlirin bölgüsü - riyaziyyat məzmun xətti

**3.** Xəritə üzərində göstərmək - coğrafiyanın məzmun xəttinə uyğundur.

Müəllimlər bildirir: "Bunu ona görə tarixin məkan məzmun xəttinə aid etmirik ki , dərslikdə təqdim edilən xəritə Böyük coğrafi kəşflər ( XV- XVI əsr), coğrafiya fənni ilə inteqrasiya əsasında verilmiş xəritədir. Çünki həmin xəritədə Avstraliya materiki də verilib, tarixin bəhs etdiyimiz dövründə Avstraliya materiki kəşf edilməmişdi.Mənbə: VII sinif Ümumi tarix dərsliyi, səh. 123. Əgər bunu israrla tarixin məzmun xətti kimi təqdim etmək istəsələr bir əsaslı cavab da 10 sinif ümumi tarix dərsliyində xəritə səh. 128-də verilib.

Oxuduğumuz metodiki vəsait və mənbələrə, eyni zamanda təhsil ictimaiyyətinə də məlum olan hörmətli təlimçilərin izahlarına əsaslanmışıq ki, isteqrasiyanı gələcəkdə keçiləcək biliklərə əsasən aparmırıq. Ümumtəhsil məktəblərində istifadə etdiyimiz dərsliklərdəki xəritələrin coğrafiya fənni ilə inteqrasiyada verildiyi üçün mən burda coğrafiya fənninin məzmun xəttini əsas götürmüşük.

Ümumi nəticədə "tarix, riyaziyyat və coğrafiya fənninin məzmun xətləri əsasında fənlərarası inteqrasiya" cavabını götürmüşük. Bütün bu göstərdiyimiz faktlara əsasən 52-ci suala təkrar baxılmasını və nəticənin lehimizə hesablanmasını tələb edirik. Əgər əksi iddia edilərsə, hansı mənbəyə əsaslandıqlarını yazılı şəkildə (mənbə dəqiq göstərilməklə) təqdim edilməyini tələb edirik.

Təkrara edirik, cavabın coğrafiya fənninin məzmun xətləri əsasında fəndaxili inteqrasiya kimi əsaslandırılması düzgün hesab edilə bilməz. Sertifikasiya tarix müəllimləri üçün keçirildiyindən iştirakçıdan coğrafiya fənninin məzmun xətlərini bilməsi tələb oluna bilməz. Bu səbəbdən sualın cavabı birmənalı deyil və fənlərarası inteqrasiya cavabı da doğru hesab edilməlidir".

Mübahisəli digər bir sual olan 57 nömrəli situasiyada "əcnəbi şagirdlə sinfin digər şagirdlərinin qaynayıb-qarışmaması" problemi qoyulub və ən effektiv tədbirin nə olacağı soruşulur. Rəsmi cavab qəbul edilən variantda "müəllimin şagirdi təkbaşına gəzdirməsi və yerli mədəniyyət barədə məlumat verməsi" təsvir olunur.

Etiraz edən müəllimlər bildirirlər ki, sualın şərtində problem subyektlər arasında sosial adaptasiya olduğu halda, cavabda müəllimyönümlü (teacher-centered) passiv yanaşma təklif edilir. Bu fəaliyyət uşaqlar arasında real ünsiyyət yaratmır, kurikulumun şagirdyönümlülük prinsipinə ziddir və problemi kökündən həll etmir.

"Buna görə də komissiyadan bu passiv fəaliyyətin sosial inteqrasiyada "ən effektiv tədbir" olduğunu sübut edən rəsmi kurikulum vəsaitlərinə (mənbəsinə) istinadən yazılı əsaslandırma təqdim etməsini, sualın ləğvini və balımızın bərpasını tələb edirik. Əks halda, hüquqlarımızın qorunması üçün Prezident Administrasiyasına və Ombudsman Aparatına müraciət etmək hüququmuzu özümüzdə saxlayırıq".

Ümumiyyətlə, sertifikasiyada iştirak edən tarix müəllimlərinin əksəriyyəti eyni fikirdədir: "Tarix fənnindən salınan bütün testlər sanki müəllimin analitik bacarığını, tarixi savadını deyil, mexaniki yaddaşını yükləmək və çaşdırmaq üçün tərtib edilmişdi. Əvvəl sualı oxuyub yazırdıq, indi "situasiya" kəşf ediblər. Artıq oxumağın mənası qalmayıb. Bir situasiyada hər cavab məntiqli hesab edilə bilər. Sualı tərtib edən müəllif necə düşünübsə, doğru cavabı da onun məntiqi ilə götürüblər. Bir nəfərin məntiqi doğru cavab ola bilməz, bu, mənbəyə, tarixə ziddir."

Məlumat üçün qeyd edək ki, sertifikasiya mərhələsini keçmək üçün təhsilverənlərdən minimum 30 bal toplamaq tələb olunur. Bu balı toplayanlar artıq sertifikatlaşdırılmış hesab olunur. Əməkhaqqı əlavəsi üçün tələb edilən bal da minimum 30-dur. 30-50 bal arası nəticə göstərən təhsilverənlərin maaşına 10%, 51-60 bal arası nəticə göstərən müəllimlərin maaşına 35% əlavə hesablanır. İmtahana salınmış sözügedən 3 sualın mübahisəli cavabı minlərlə müəllimin dövlətin vəd etdiyi bu artımdan faydalanma hüququnu əlindən alır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
1 iyul
2026-cı il


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN
XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı,
təbrik və başsağlıqlarınızı
dərc etməyə hazırıq!


ARAŞDIRMA

# Kanallarda boğulma: görünməyən təhlükə və hər yay təkrarlanan faciələr

***Yay aylarında Azərbaycanda ən çox rast gəlinən ölüm hadisələrindən biri boğulmalardır. Maraqlıdır ki, bu hadisələrin əhəmiyyətli hissəsi dənizdə və ya çaylarda deyil, suvarma və magistral kanallarda baş verir. Kanallar insanların gözündə adi su hövzəsi kimi görünsə də, mütəxəssislər onları ən təhlükəli su obyektlərindən biri hesab edirlər. SİA mövzu ilə bağlı araşdırma edib.***



### Dünyada boğulma problemi

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada hər il təxminən 300 min nəfər boğularaq həyatını itirir. Boğulma uşaqlar və gənclər arasında ən çox ölümə səbəb olan təsadüfi hadisələrdən biridir. Ölənlərin 90 faizdən çoxu aşağı və orta gəlirli ölkələrin payına düşür.

BMT boğulmanı qlobal ictimai sağlamlıq problemi kimi qiymətləndirir. Xüsusilə 1-24 yaş arası uşaqlar və gənclər risk qrupunda hesab olunur.

### Niyə məhz kanallar?

Araşdırmalar göstərir ki, suvarma kanalları təbii göl və çaylardan daha təhlükəlidir.

**Bunun əsas səbəbləri:**

-Güclü və davamlı su axını;
-Kanal dibində yaranan geriçəkən axınlar;
-Beton divarların sürüşkən olması;
-Kənardan dərinliyin görünməməsi;
-İnsan yıxıldıqdan sonra sudan çıxmasının çətinləşməsi.

ABŞ-ın Kaliforniya ştatında aparılan araşdırmada 2005-2020-ci illər ərzində kanallarda onlarla insanın boğulduğu qeyd edilir. Təhlükənin əsas səbəbi kimi axının gücü və kanaldan çıxmağın çətinliyi göstərilir.

### Kanallarda niyə yaxşı üzən insanlar da boğulur?

Bu, ən maraqlı məqamlardan biridir. Sosial şəbəkələrdə və forumlarda hadisədən sağ çıxan şəxslərin hekayələri göstərir ki, insanlar çox vaxt axının gücünü düzgün qiymətləndirmirlər. Hətta yaxşı üzən şəxslər belə kənara çıxmaq istəyəndə su onları divardan uzaqlaşdırır və panika başlayır. Mütəxəssislərin fikrincə, kanalda problem üzmək deyil, sudan çıxmaqdır. Beton səthə yapışmaq və yuxarı qalxmaq çox vaxt mümkün olmur.

### Türkiyə təcrübəsi: hər yay təkrarlanan faciələr

Azərbaycan kimi isti iqlimə malik Türkiyədə də kanal boğulmaları ciddi problemdir. 2023-cü ildə cəmi bir ay yarım ərzində Türkiyədə suvarma kanalları, çaylar və göllərdə 82 nəfər həyatını itirib. Ölənlər arasında çoxlu sayda uşaq olub. Hadisələrin əksəriyyəti insanların istidən qorunmaq üçün kanallara girməsi nəticəsində baş verib. Türkiyənin cənub bölgələrində aparılmış elmi araşdırmalar göstərir ki, bəzi şəhərlərdə boğulmaların yarıdan çoxu məhz suvarma kanallarında qeydə alınır.

### Azərbaycanda vəziyyət

Azərbaycanda rəsmi statistikada boğulmalar adətən ümumi şəkildə təqdim olunur. Lakin FHN-in məlumatları və media xəbərləri göstərir ki, hər il magistral və suvarma kanallarında çoxsaylı ölüm hadisələri baş verir. Təkcə son günlərdə Kürdəmir rayonunda Şirvan suvarma kanalında bir nəfərin boğulması qeydə alınıb. FHN dalğıcları tərəfindən meyit sudan çıxarılıb.

Oxşar hadisələr daha çox Kür-Araz ovalığında yerləşən rayonlarda — Sabirabad, Saatlı, İmişli, Kürdəmir, Hacıqabul, Yevlax, Tərtər və digər ərazilərdə müşahidə olunur. Bu rayonlarda geniş suvarma şəbəkəsinin olması riski artıran əsas amillərdəndir.

### Uşaqlar niyə əsas risk qrupudur?

ÜST məlumatlarına görə, boğulma nəticəsində ölənlərin böyük hissəsi uşaqlar və gənclərdir. Xüsusilə 5 yaşdan kiçik uşaqlar ən yüksək risk qrupuna daxildir.

**Kanallarla bağlı risklər isə daha da yüksəkdir:**

-Uşaqlar kanalı çimərlik kimi qəbul edir;
-Axının gücünü qiymətləndirə bilmirlər;
-Nəzarətsiz qalırlar;
-Kanal ətrafında qoruyucu baryerlər çox vaxt olmur.

### Xarici ölkələr problemi necə həll edir?

**Bir çox ölkədə aşağıdakı tədbirlər nəticə verib:**

-Kanalların ətrafının hasarlanması;
-Təhlükəli hissələrdə videomüşahidə sistemləri;
-Xəbərdarlıq lövhələrinin artırılması;
-Məktəblərdə su təhlükəsizliyi dərsləri;
-Uşaqlar üçün üzgüçülük təlimləri;
-Kanal kənarlarında xilasedici avadanlıqların yerləşdirilməsi.

Boğulmaların böyük hissəsi insanların üzməyi bilməməsi səbəbindən deyil, təhlükəni düzgün qiymətləndirməməsi səbəbindən baş verir. Kanalın sakit görünən səthi altında çox güclü axın ola bilər və insan saniyələr içində nəzarəti itirə bilər.

***Ayşən Vəli***

# Hansı daha faydalıdır: kartof, yoxsa düyü?

***...Kartof və düyü ənənəvi olaraq ən məşhur karbohidrat mənbələrindəndir. Hər iki qida enerji verir, lakin mütəxəssislər qeyd edirlər ki, kartof ümumiyyətlə sizi daha uzun müddət tox saxlamaqda daha yaxşıdır.***

SİA xəbər verir ki, bu, Verywell Health tərəfindən bildirilib.

Səbəblərdən biri onların daha yüksək lif tərkibidir.

Qabıqlı orta kartofda təxminən 4,5 qram pəhriz lifi, bir fincan bişmiş qəhvəyi düyüdə isə təxminən 3,5 qram var.

Lif həzmi yavaşlatmağa və daha uzun müddət toxluq hiss etməyinizə kömək edir.

Kartof həmçinin yüksək su tərkibinə malikdir.

Mütəxəssislər hesablayırlar ki, su kök yumrularının çəkisinin təxminən 75-80 faizini təşkil edir. Bu, onlara daha böyük bir porsiya ölçüsü verir ki, bu da onların daha tez toxluq hiss etmələrinə kömək edir.

Bundan əlavə, kartofda lifə bənzər xüsusiyyətlərə malik karbohidrat növü olan daha davamlı nişasta var.

O, həmçinin düyüdə də mövcuddur, lakin daha az miqdarda. Bundan əlavə, bişirildikdən və sonradan soyuduqdan sonra kartofdakı davamlı nişastanın səviyyəsi artır ki, bu da toxluq hissini daha da artıra bilər.

Eyni zamanda, mütəxəssislər bizə xatırladır ki, toxluq hissi yalnız qarnirdən daha çox şeydən asılıdır.

Kartof və ya düyünün zülal və lif mənbələri ilə birləşdirilməsi karbohidratların mənimsənilməsini yavaşlatacaq və aclıq daha yavaş qayıdacaq.

Qida dəyəri baxımından kartofun bir neçə üstünlüyü var. Onlar eyni porsiya düyüdən daha az kalorilidir və daha çox kalium, C vitamini, B6 vitamini və dəmir ehtiva edir. Məsələn, orta hesabla kartof təxminən 164 kalori, bir fincan bişmiş qəhvəyi düyü isə 218 kalori, ağ düyü isə 242 kalori ehtiva edir.

Buna baxmayaraq, qəhvəyi düyü də sağlam qida hesab olunur. Bu, tam taxıldır və bədəni əlavə lif, maqnezium, dəmir və digər vacib mikroelementlərlə təmin edir.

Qida maddələrinin qorunmasını maksimum dərəcədə artırmaq üçün mütəxəssislər kartofu qaynatmağı və ya buxarda bişirməyi məsləhət görürlər.

Qabıqlarını üzərlərində saxlama da faydalıdır, çünki tərkibində bəzi qida lifi var.

Davamlı nişastanın miqdarını artırmaq üçün bişmiş kartofu yeməkdən əvvəl bir neçə saat soyuducuda saxlamaq tövsiyə olunur.

***Əli Babayev***



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**